CMYK



# UNUTMA!

## Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | — |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | — |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | — |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | — | 10085 nəfər | 62 nəfər |

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

# HƏRBİ XƏBƏRLƏR

### Azərbaycan gələn il yeni Pilotsuz Uçan Aparatların istehsalına başlayacaq

Azərbaycan Müdafiə Sənayesi Nazirliyi (MSN) 2016-cı ildə yeni nəsil Pilotsuz Uçuş Aparatlarının (PUA) istehsalına başlayacaq.

"AzeriDefence" hərbi xəbər agentliyinin məlumatına görə, bu barədə jurnalistlərə müdafiə sənayesi naziri Yavər Camalov deyib.

Y.Camalov bununla bağlı dövlət başçısının tapşırıq verdiyini qeyd edib.

"Bu uçuş aparatları kəşfiyyatla yanaşı, digər funksiyaları da həyata keçirəcək, aşkarladığı hədəfləri məhv edə biləcək. Yeni PUA üzərində işlər 2016-cı ilin sonlarında başa çatdırılacaq və istehsalına başlanacaq",-deyə nazir vurğulayıb.

Nazir bundan əlavə, uzaq mənzilli raketlərin istehsalı istiqamətində müvafiq qurumlarla danışıqlar aparıldığını və yaxın zamanlarda bu məhsulların istehsalına başlanacağını bildirib.

### "Arlan" zirehli maşını sınaqdan çıxarıldı

Qazaxıstan Müdafiə Nazirliyi yerli istehsalı olan "Arlan" zirehli avtomobilinin sınaq video-görüntülərini yayıb.



"AzeriDefence"in məlumatına görə, zirehli maşın "Kazakhstan Paramount Engineering"in Astanadakı müəssisəsində istehsal olunur.

Qeyd edək ki, "Arlan" Cənubi Afrika Respublikasının "Paramount Group" şirkətinin "Marauder" zirehli maşınının bazasında istehsal olunub.

Maşın çoxməqsədli fəaliyyət üçün nəzərdə tutulub.

"Arlan"ın üzərində iriçaplı pulemyot və müxtəlif formatlı hava hücumundan müdafiə sistemləri qurulub.

Avtomobilin çəkisi 12 tondur.

### Türkiyə Ordusu MPT-76 ilə silahlanacaq

Türkiyə Silahlı Qüvvələri MPT-76 avtomatının yeni partiyasının alınmasını sifariş verib.



"AzeriDefence" hərbi xəbər agentliyinin xarici mediaya istinadən verdiyi məlumatına görə, satınalmanın dəyəri 18 milyon dollardır.

Müqaviləyə əsasən, Silahlı Qüvvələrə 15014 ədəd 7,62 çaplı MPT-76 avtomat veriləcək.

Məlumatda o da qeyd edilib ki, müqavilənin 1-ci mərhələsində orduya 20000 avtomat verilib.

# ƏSRLƏRDƏN GƏLƏN MÜDRİK KƏLAMLAR

***Ağıllı adam ağlından, müdrik adam isə başqalarının da ağlından istifadə edər.***

*Vicdanla çalışmaq bizi üç şeydən qurtarar: əziyyətdən, pis vərdişlərdən, yoxsulluqdan.*

***Birinci dəfə bağışlamaq müdriklik, ikinci dəfə bağışlamaq rəhmlilik, üçüncü dəfə bağışlamaq axmaqlıqdır.***

*Nə üçün insanlar çoxluğun ardınca gedərlər? Ona görə ki, çoxluq haqlıdır? Xeyr, ona görə ki, çoxluq güclüdür.*

***Bəzi insanlar söyləyəcəkləri çox şey olduğu halda, susarlar. Çünki anlayanları yoxdur.***

*Sirrini heç kimə söyləmə. Güzgüyə baxarkən gördüyün insan etibar edəcəyin yeganə insandır.*

***Hər yeni doğulmuş körpə yeni bir dünyadır.***

*Çox dil bilmək bir qıfıla bir neçə açarla yaxınlaşmaq imkanıdır.*

***Ən zəif cəhətimiz odur ki, müzakirə etməyi daha çox sevirik, nəinki iş görməyi.***

*Dünyanın ən yoxsul insanı, puldan başqa heç bir şeyi olmayandır.*

***Ən aldadılmış ona deyərlər ki, nağdını nisyəyə dəyişə.***

*Həyatdan dərs ala bilməyən adama heç kəs dərs verməməlidir, çünki əməyi hədər gedər.*

***İstəyirsən ki, asudə yaşayasan, işlərini hadisələrin gedişinə uyğun qur.***

*İstəmirsən ki, sənə divanə desinlər, tapılmayan şeyi axtarma.*

***Dostunun az olmasını istəmirsənsə, kin saxlayan olma, artıq dərəcədə kədərli olmaq istəmirsənsə, paxıl olma!.***

# "VƏTƏNİ SEVMƏK KİFAYƏT ETMİR, ONU QORUMAĞI DA BACARMALISAN!"



**16075 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Fərid Bağıyev xidmətə olan münasibəti, əzmkarlığı sayəsində həm hərbi hissə komandanlığının, həm də şəxsi heyətin dərin rəğbətini qazanıb.**

O, 1984-cü il dekabrın 12-də Abşeron rayonunun Saray qəsəbəsində doğulub. Orta məktəbi 2002-ci ildə uğurla başa vuran Fərid həmin ildə Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olub. Təhsilini başa vurduqdan sonra 2006-cı ildə Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Vətənə, torpağa olan bağlılığı onu əsl hərbçi olmağa sövq etdiyindən 2011-ci ildə 16075 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayır və bu günə kimi də həmin hərbi hissədə şərəflə, vicdanla öz xidmətini davam etdirir. Çalışqanlığına və məsuliyyətinə görə hərbçi yoldaşlarına nümunə olan gizir F.Bağıyev qrup komandiri kimi tabeçiliyində olan şəxsi heyəti bacarıqla idarə edir.

Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığını daima diqqətdə saxlayan gizir F.Bağıyev tərəfindən bütün məşğələlər keyfiyyətlə təşkil olunub keçirilir.

Elə bunun nəticəsidir ki, həftə ərzində Daxili Qoşunların taktiki və fiziki hazırlıq məşğələlərində, gecə, ssenarili və xüsusi-taktiki təlimlərdə qrup üzvləri fəallıq göstərirlər.

Qrup komandiri hərbi qulluqçuların vətənpərvər ruhda tərbiyə olunmasında da əlindən gələni əsirgəmir. Gizir F.Bağıyev söhbət əsnasında bildirdi ki, Vətən sevgisi hər bir Azərbaycan vətəndaşının ürəyində kök salmalıdır. Görkəmli şairimiz Məmməd Araz yazırdı ki, "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı". Həqiqətən də bu gün hər bir vətəndaş özlüyündə öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirmiş olarsa, o zaman Vətənə, dövlətə xidmət etmiş olar. Hər kəs öz işində nümunəvi, məsuliyyətli olsa, dövlətimiz günü-gündən çiçəklənər, inkişaf edər.

Onun şəxsi heyətlə Vətən mövzusunda keçirdiyi məşğələdən bir neçə məqamı diqqətinizə çatdırmaq istərdim. Bu mövzu ətrafında qrupun hərbi qulluqçuları da öz fikirlərini, düşüncələrini bizimlə bölüşdülər.

**Əsgər Natiq Mənsimov** dedi ki, Ana Vətəni yalnız sevmək kifayət etmir, onu həm də qorumalısan.

**Kiçik çavuş Şahverən Kazımov** isə əlavə etdi ki, Vətənin hər bir qarış torpağı bizim üçün əziz və müqəddəsdir. O, Vətən anlayışının ailədən başladığını, anamızı sevdiyimiz kimi torpağımızı da sevməyin vacibliyini vurğuladı. Şahverən Ana Vətən kəlməsinin məhz bu vəhdətdən meydana gəldiyini deyərək fikrini əsaslandırdı.

**Baş əsgər Bəhman Məmmədzadə** isə diqqətə çatdırdı ki, Vətən bizim ulu babalarımızın qanı, canı bahasına miras qoyub getdiyi əmanətdir, onu qorumaq kişi işidir. O, Vətənə olan sevgimizi, düşmənə olan nifrətimizi bildirməyi bacarırıq, deyərək qürrələndi.

Diqqət çəkən maraqlı fikirlər **əsgər Xıdır Quliyev**dən gəldi: "Vətən eşqi ilə döyünən ürəklər bir gün mütləq Qarabağa qayıdacaq. Mən hərbçi kimi bir amal uğrunda yaşayıram ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin hücum əmri verilən zaman, işğal altında olan torpaqlarımızı düşmənin əsarətindən azad edim, bayrağımızı doğma torpaqlarımızda dalğalandırmaq şərəfinə nail olum".

**leytenant N.Ağayeva**

# MİNNƏTDARLIQ

**Hörmətli redaksiya!**

Anam Zenfira Vahabova səhhəti ilə əlaqədar olaraq noyabr ayının 7-dən dekabr ayının 15-dək Daxili Qoşunların Hərbi Qospitalının Terapiya və Reabilitasiya şöbələrində müalicəyə qəbul olunub. Müalicə aldığı müddət ərzində Qospitalın tibbi personalı anama xüsusi diqqət və qayğı ilə yanaşıb, onun sağlamlığına qovuşması üçün hər cür köməkliyi göstəriblər.

Buna görə də 12576 saylı hərbi hissənin komandiri tibb xidməti polkovnik-leytenantı Şəmsəddin Heydərov başda olmaqla, müalicə zamanı zəhməti olan bütün şəxsi heyətə, o cümlədən qospital rəisinin müalicə işləri üzrə müavini-tibb hissəsinin rəisi tibb xidməti mayoru Şahin Şahmarova, Terapiya şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Əlican Hacıyevə, kardioloq tibb xidməti mayoru Ramin İsmayılova, müalicə həkimləri tibb xidməti kapitanı Rəna İsmayılovaya, tibb xidməti leytenantı Gülnarə Hacıyevaya, travmatoloq Hamlet Nəsibova, tibb bacıları kiçik gizir Aynur Babayevaya, baş çavuş Ayşən Səfərliyə və baş çavuş Səbinə Hüseynovaya dərin minnətdarlığımı bildirir, bütün kollektivə bundan sonrakı xidməti fəaliyyətlərində uğurlar arzulayıram.

**12576 saylı hərbi hissənin Qərargahında döyüş təlimi üzrə zabit mayor Kamran Vahabov**

# DÜNYA ÖLKƏLƏRİ HAQQINDA MARAQLI MƏLUMATLAR

**1.** Məhbuslarının sayının ən çox olduğu ölkə Amerika Birləşmiş Ştatlarıdır. Kimisə həbsxanaya salmaq məsələsinə gəldikdə bu ölkənin bərabəri yoxdur. ABŞ-da dünya əhalisinin 5%-i yaşayır və dünyada olan məhbusların 25%-i (təqribən 2,2 mln. insan) məhz bu ölkədədir.

**2.** Saat zolaqlarının sayı ən çox olan ölkə Fransadır. Fransanın dəniz əraziləri daxil olmaqla bütün ərazisini nəzərə alsaq, görərik ki, bu ölkə 12 saat zolağında yerləşir. Məlumat üçün bildirək ki, ABŞ 11 saat zolağını, Rusiya 9 saat zolağını əhatə edir.

**3.** Dünyada yolları mərcan liflərindən olan yeganə ölkə Quamdır. Bu ölkədə təbii qum yoxdur, ona görə də asfaltı mərcan liflərindən və neftdən istifadə etməklə hazırlayırlar.

**4.** Göllərinin sayı ən çox olan ölkə Kanadadır. Dünya göllərinin 60%-i Kanada ərazisindədir. Kanadada ölkənin 9%-ni tutan 3 000 000-dan çox göl var.

**5.** Opiumun ən böyük istehsalçısı olan ölkə Əfqanıstandır. Burada dünyada istehsal olunan opiumun 95%-i istehsal olunur.

**6.** Oksigenin ən böyük istehsalçısı olan ölkə Rusiyadır. Dünya meşələrinin təqribən 25%-i Sibirdə bitir və ABŞ-ın kontinental hissəsindən çox ərazini əhatə edir ki, bu da Rusiyanı dünyanın ən güclü karbon qazını oksigenə çevirən ölkəsi edir.

**7.** Dünyanın ən təhsilli ölkəsi Kanadadır. Bu ölkənin əhalisinin 50%-nin təhsili orta ixtisas təhsilindən aşağı deyil. Kanadadan sonra bu sıralamada İzrail (45%), Yaponiya (44%) gəlir.

**8.** Tanklarının sayı ən çox olan ölkə Rusiyadır. Rusiyada tankların sayı 21 000-dir. İkinci yerdə isə 16 000 tankı olan ABŞ-dır.

**9.** Ən gənc əhalisi olan ölkə Nigerdir. Niger əhalisinin təqribən yarısı 15 yaşdan gəncdir. Həmçinin bu ölkənin ərazisinin 80%-i səhradan ibarətdir.

**10.** Dillərinin sayı ən çox olan ölkə Papua-Yeni Qvineyadır. Ölkənin rəsmi dili ingilis dilidir. Əhalinin cəmi 2%-i bu dildə danışır. Papua-Yeni Qvineya sakinləri 820-dən çox müxtəlif dillərdən istifadə edirlər ki, bu da dünya dillərinin 12%-ni təşkil edir.

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin şəxsi heyəti leytenant Xəqani Rəhimliyə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş gizir Elbrus Paşayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 24 (466)
24 dekabr
2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ



***Azərbaycan xalqının tarixində əvəzsiz yer tutan, əsl vətənpərvər, millətsevər Azərbaycanlı Heydər Əliyevin xalqımız üçün gördüyü işlərin böyüklüyünü sadalamaqla bitməz. Bütün varlığını, bilik və təcrübəsini xalqının rifahına həsr edən bu nadir şəxsiyyətin həyatı bütöv bir əsrə bərabərdir. Çünki o, ən ağır, faciəli zamanlarda vətəni Azərbaycanın yanında oldu, xalq taleyini ona etibar etdi. O isə bu etimadı, inamı doğrultdu, sonsuz məhəbbətlə, bütün canı, qanı ilə sevdiyi torpağını parçalanmaqdan, məhv olmaqdan, daha böyük faciələrdən xilas etdi, onu müstəqil bir dövlət kimi bütün dünyaya tanıtdı. Bu gün müstəqil, xoşbəxt, rifah halında yaşamağımızın səbəbkarı Heydər Əliyevdir.***

Çünki Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış günlərin hər birinin arxasında dahi rəhbərin imzası durur. Bu günlərdən ən əhəmiyyətlisi sözsüz ki, bütün dünyada yaşayan azərbaycanlıların bir araya toplandığı gün idi. Minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən də məhz türk dünyasının böyük dövlət xadimi Heydər Əliyev oldu.

Hələ 1991-ci ilin dekabr ayının 6-da Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan edilməsi barədə qərar qəbul etdi.

Müstəqilliyimizi əldə etdikdən sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirildi. Məhz müstəqillik bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsi üçün böyük imkanlar yaratdı. Uzaqgörən dövlət başçısı bütün imkanlardan lazımınca istifadə etdi. Çünki o, çox yaxşı başa düşürdü ki, qüdrətli Azərbaycan qurmaq üçün atılan ilk addım bütün xalqı bir yumruq kimi birləşdirməkdir. Təbii ki, Türkiyə, Rusiya, Cənubi Azərbaycan, Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Kanada və dünyanın başqa ölkələrində yaşayan soydaşlarımızı bir araya gətirmək elə də asan iş deyildi. Ancaq dahi rəhbər bunun da öhdəsindən layiqincə gəldi. 2001-ci ilin noyabr ayının 10-da paytaxt Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda 36 ölkədən 1105 nümayəndə, 906 qonaq iştirak edirdi.

**Qurultayda çıxış edən Heydər Əliyevin nitqindən bir hissəni xüsusilə diqqətə çatdırmaq istərdim: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".**

Bu ifadə bir daha sübut etdi ki, dahi öndərin əsas qayəsi yalnız və yalnız xalqın milli birliyinə nail olmaq idi. O, bunu bacardı. Çünki Qurultayda Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul olundu. O cümlədən, 2002-ci ilin iyulun 5-də Xarici Ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı.

Ümummilli Liderin qoyduğu ideyalar bu gün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

2006-cı il mart ayının 16-da keçirilən Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçildi və Dünya azərbaycanlılarının bir mərkəzdən koordinasiyası istiqamətində daha geniş, çoxşaxəli tədbirlər həyata keçirilməyə başlanıldı.

Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan sayca 3-cü ən böyük qurultay isə 2011-ci il iyul ayının 5-6-da təşkil olundu. Qurultayda 42 ölkədən 1272 nümayəndə, 579 təmsilçi və 211 qonaq iştirak etmişdi. Bu mühüm tədbirə ümumilikdə, 13 ölkənin parlamentindən 37 deputat qatılmışdı. Qürurverici hal ondan ibarət idi ki, qurultayın iştirakçıları arasında vaxtilə Azərbaycanda yaşamış yəhudi, rus, ukraynalı, bolqar, ahıska türkü və digər xalqların miqrantları da var idi. Qurultayın yekununda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xarici ölkələrin parlamentlərinə müraciət qəbul olundu.

Beləliklə, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan, Prezidentimiz İlham Əliyevin davam etdirdiyi bu ənənə milli birliyin əldə olunması üçün əvəzsizdir. Xalqımızın üzərinə düşən əsas vəzifə isə bu ənənəni daim qoruyub saxlamaq, dövlətimizin ətrafında sıx birləşməkdir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan ərazisində rəsmi olaraq 1993-cü il dekabrın 31-dən etibarən hər il qeyd olunur.

**leytenant X.Tağıyeva**

## Dekabrın 24-ü Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham ƏLİYEVİN doğum günüdür



**İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.**

1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.

MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.

1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.

1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.

1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.

1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.

2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideyalarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54 % səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2013-cü il oktyabrın 19-da vəzifəsinin icrasına başlamışdır.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir. Üç övladı, üç nəvəsi var.

## «31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ» VƏ «YENİ İL» BAYRAMLARI MÜNASİBƏTİ İLƏ DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ – DAXİLİ QOŞUNLARIN KOMANDANININ TƏBRİKİ

**Cənab generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər !**

Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi günü müstəqillik əldə olunan zamandan etibarən xalqımız üçün böyük əhəmiyyət kəsb edən şərəfli bir tarixə çevrilmişdir. Milli həmrəylik-mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, özünəməxsus ənənələrimizə sadiqlik deməkdir. Vətənini, xalqını sevən hər bir azərbaycanlı öz dövlətini qorumalı, Vətənə böyük məhəbbət və sədaqət nümayiş etdirməlidir.

2015-ci il mühüm tarixi hadisələrlə, müstəqilliyimizin və dövlətçiliyimizin əbədiliyi naminə həyata keçirilən ardıcıl və səmərəli tədbirlərlə əlamətdar olmuşdur. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan daha da inkişaf etmiş, qüdrətlənmişdir.

Ölkə rəhbərinin uğurlu daxili və xarici siyasət kursunun təntənəsi kimi respublikada daxili sabitliyin yaradılması və ictimai təhlükəsizliyin etibarlılığının təmin olunması, demokratik və hüquqi dövlət quruculuğu sahəsində qazanılmış nailiyyətlər dövlətimizin intensiv tərəqqi dövrünə qədəm qoymasına imkan vermişdir. Azərbaycan özünü dünyəvi və demokratik dövlət kimi beynəlxalq aləmdə təsdiqləmişdir.

Böyük iftixar hissi ilə qeyd etmək istəyirəm ki, bu uğurların əldə olunmasında, ölkədə ictimai asayişin qorunmasında və möhkəmlənməsində, cinayətkarlıqla mübarizədə sıralarında qulluq etdiyimiz Daxili Qoşunların da böyük xidmətləri olmuşdur. Yola saldığımız ildə dövlətin və xalqın keşiyində mətin dayanan Daxili Qoşunların xidməti fəaliyyəti ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

**Əziz silahdaşlarım!**

Əminəm ki, qarşıdan gələn 2016-cı ildə də Daxili Qoşunların şəxsi heyəti dövlət başçısı tərəfindən fəaliyyətimizə verilmiş qiyməti və göstərilən etimadı şərəflə doğruldacaq, Azərbaycan dövlətinin etibarlı dayaqlarından biri kimi qarşıya qoyulan məsuliyyətli tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələcəkdir.

Sizi «Dünya Azərbaycanlılarının Həmrəyliyi günü» və «Yeni il» bayramları münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, uzun ömür, ailə səadəti və xidməti fəaliyyətinizdə uğurlar arzulayıram!

**Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov**
**24 dekabr 2015-ci il**

## DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANIM MƏRASİMİ KEÇİRİLİB

*Dekabrın 11-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım mərasimi keçirilib.*



Tədbir Ulu Öndərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin ifa olunması ilə başlayıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətini əks etdirən film nümayiş olunub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Zahid Oruc Heydər Əliyevin həyat və fəaliyyətinin hər birimiz üçün əsl örnək olduğunu söyləyib. O, Ulu Öndərin dahi siyasətçi və dövlət xadimi kimi Azərbaycan tarixində silinməz izlər qoyduğunu bildirib. Qeyd edib ki, hələ gənc yaşlarından etibarən məntiqi, uzaqgörənliyi, istedadı, bacarığı ilə həmyaşıdlarından fərqlənən bu nadir şəxsiyyətin dövlət təhlükəsizlik orqanlarındakı fəaliyyəti onun gələcəkdə dahi rəhbər olacağına bir işarə idi. Heydər Əliyevin öz dühası ilə Azərbaycanı sürətli inkişaf yoluna çıxardığını, onu dünyada tanıtdığını deyən Z.Oruc vurğulayıb ki, məhz dahi rəhbərin fəaliyyəti nəticəsində ölkəmiz dünya dövlətləri sırasında layiqli yerini tutdu.

Milli Məclisin deputatı Heydər Əliyev şəxsiyyətinin onilliklər sonra da Azərbaycan xalqı tərəfindən böyük qürur hissi ilə xatırlanacağına əminliyini ifadə edib.

Daxili İşlər Nazirinin müavini- Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov anım gününün nəinki respublikamızda, dünyanın hər bir ölkəsində yaşayan soydaşlarımız tərəfindən qeyd olunduğunu bildirib. General-leytenant Ş.Məmmədov müasir müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xalqımız, dövlətimiz, millətimiz üçün xidmətlərinin nəhayətsiz olduğunu söyləyib. Vurğulayıb ki, Ümummilli Liderin müəyyənləşdirdiyi vəzifələr ümumxalq sevgisi qazanmış Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

General-leytenant Ş.Məmmədov çıxışının sonunda əminliklə bildirib ki, Daxili Qoşunların hərbi qulluqçuları Ulu Öndərimizin əbədiyaşar ideyalarına bundan sonra da sadiq olacaq, Vətənimizi Heydər Əliyev kimi sevəcək, dövlətimizə, dövlətçiliyimizə qarşı çıxanlarla barışmaz olacaq, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşəcək, onun əmr və göstərişlərini sözsüz yerinə yetirəcəklər. Qeyd olunub ki, Ümummilli Liderimizin daim Azərbaycanla, xalqımızla birgə olan ruhu qarşısında bunu etməyə hər birimiz borcluyuq.

**Mətbuat xidməti**

